# İQTİSADİYYAT

## GÖMRÜK İŞİ SFERASINDA REGİONAL BEYNƏLXALQ MÜQAVİLƏLƏR

**A.M.MƏHƏRRƏMOV**
*Bakı Dövlət Universiteti*

Gömrük münasibətlərinin tənzimlənməsində və gömrük sferasında əməkdaşlığın həyata keçirilməsində regional səviyyədə fəaliyyət göstərən ümumi və ixtisaslaşmış beynəlxalq təşkilatların müxtəlif aspektlərdə rolu mühüm əhəmiyyət kəsb edir. Bunun əsasını isə GƏŞ-in 1986-cı ildən öz işini regional yanaşmada həyata keçirməsi təşkil edir. Belə ki, GƏŞ/ÜGT hesab edir ki, bu və ya digər regionların gömrük xidmətləri tez-tez oxşar problemlərlə üzləşirlər. Təbii ki, həmsərhəd dövlətlərin gömrük sərhədləri vasitəsilə malların yerdəyişməsini tənzim edən gömrük qayda və prosedurlarının harmonizasiyası və unifikasiyası sahəsində həmin xidmətlərin ehtiyacları bir-biri ilə yaxınlıq təşkil edir. Məhz buna görə də GƏŞ/ÜGT regionlar daxilində əməkdaşlığın intensivləşdirilməsini təşviq edir. Hazırda isə Şura çərçivəsində GƏŞ/ÜGT-nin iştirakçı-dövlətlərini birləşdirən 6 regional qrupu mövcuddur. Göstərilən hər bir qrupa Siyasi Komissiyanın təqdimatına əsasən iki il müddətinə region dövlətlərinin adi səs çoxluğu ilə növbəlilik qaydasında ÜGT-nin sessiyalarında seçilən regional nümayəndələr başçılıq edir. Həmin regional qruplara aşağıdakılar aiddir:

- Amerika və Karib hövzəsi;
- Avropa;
- Şimali Afrika, Yaxın və Orta Şərq;
- Qərbi və Mərkəzi Afrika;
- Şərqi və Cənubi Afrika;
- Uzaq Şərq, Cənubi və Cənubi-Şərqi Asiya, Avstraliya və Okeaniya [4, 408].

Regional səviyyədə müvafiq münasibətlərin nizama salınmasında ayrı-ayrı regional qurumların da rolu mühüm əhəmiyyət kəsb edir. Məsələn, Avropa İttifaqı (Aİ) çərçivəsində mövcud olan normayaradıcılıq fəaliyyətinin nəticəsi hesab olunan ayrı-ayrı aktlar gömrük münasibətləri və onun müxtəlif istiqamətlərinin tənzimlənməsində əsas qismində çıxış edirlər. Aİ məkanında gömrük münasibətlərinin tənzimlənməsində gömrük ittifaqlarının rolu danılmazdır. Onu da qeyd etmək lazımdır ki, İttifaq çərçivəsində gömrük ittifaqının yaradılması ilə bağlı müddəalar Avropa İqtisadi Birliyi haqqında Müqavilənin 9-cu maddəsində (Avropa İttifaqı haqqında Müqavilənin 23-cü maddəsi) təsbit edilmişdir. Belə ki, burada göstərilir ki, Birlik (yəni müasir dövrdə

İttifaq) bütün əmtəə ticarətini əhatə edən, üzv-dövlətlər arasında səmərəliliyin artırılması məqsədilə idxal və ixraca gömrük rüsumları, həmçinin iştirakçı-dövlətlər və üçüncü ölkələr arasında münasibətlər üçün ümumi gömrük tarifinin qəbulunu nəzərdə tutan gömrük ittifaqına əsaslanmalıdır [5, 464-465].

Lakin «gömrük ittifaqı» anlayışına da müxtəlif istiqamətlərdə yanaşılır. Məsələn, N.Mussis həmin terminə iştirakçıların müqavilə əsasında bir-birlərinə münasibətdə eyniqiymətli səmərəyə malik istənilən gömrük rüsumu, yığımı və kəmiyyət məhdudiyyətlərini müəyyən etməkdən imtina etmək, «üçüncü» dövlətlərə münasibətdə xarici ümumi gömrük tarifi qəbul etməsi barədə razılığa gəlmələrini ifadə edən iqtisadi məkanı aid edir [7, 61].

İttifaqın (əvvəlki Birliyin) Gömrük İttifaqının inkişaf tendensiyasına gəldikdə isə, demək olar ki, müvafiq qurum Təşkilatın tarixi ilə birgə inkişaf yolu keçmişdir. Avropada ilk belə cəhd Avropa Kömür və Polad Birliyi (AKPB) haqqında Müqavilənin qəbulu ilə həyata keçirilmişdir. Belə ki, R.Şuman tərəfindən irəli sürülən bəyannamədə qeyd edilən «birləşmiş dövlətlər arasında kömür və poladın istifadəsi bütün gömrük rüsumlarından təxirəsalınmadan azad edilir» müddəası sonradan öz təsdiqini 1953-cü ilin fevral ayının 10-da qüvvəyə minən AKPB haqqında Müqavilənin 4(a) maddəsində tapmışdır. Roma Müqaviləsinin 9-cu maddəsinin 1-ci bəndində isə göstərilir ki, Birliyin əsasını bütün əmtəə mübadiləsini əhatə edən və üzv-dövlətlər arasında bütün rüsum və vergilərin aradan qaldırılmasını, o cümlədən üçüncü dövlətlərlə münasibətdə vahid gömrük tarifinin müəyyənləşdirilməsini özündə əks etdirən gömrük ittifaqı təşkil edir [2, 75].

Ümumiyyətlə, Aİ-də üzv-dövlətlər arasında sərhədlərdə gömrük prosedurlarının ləğvi ilə bağlı proses 20 ildən çox davam edərək 1993-cü ildə sona çatmaqla, bir sıra tədbirlərin həyata keçirilməsinə şərait yaratdı. Bunun üçün zəruri baytar və fitosanitar nəzarətin keçirilməsi, o cümlədən statistik məlumatların toplanılması üçün xüsusi prosedurlar işlənib hazırlandı. Vətəndaşların sağlamlığının qorunması məqsədilə becərildiyi və ya yetişdirildiyi yerlərdə bitkilərin və heyvanların qorunması üzərində nəzarət haqqında qanunvericiliyin formalaşdırılmasına xüsusilə diqqət yetirilir. 1992-ci ilin yanvar ayının 1-dən isə sərhədlərdə baytar və fitosanitar nəzarəti ləğv edilərək yükün göndərilmə yeri üzrə həyata keçirilməyə başlanılmışdır. Buna görə məsuliyyəti isə Baytar və Fitosanitar Təftiş Agentliyi daşıyır.

Bir sıra müəlliflərin fikrincə, Gömrük İttifaqının qurulması üçün aşağıdakı məqsədlərə nail olunması vacib əhəmiyyətə malikdir: iştirakçı-dövlətlər arasında gömrük rüsumları və analoji yığımların aradan qaldırılması; üzv-dövlətlər arasında əmtəə dövriyyəsinə təsir edən dolayı vergiqoyma sahəsində müəyyən şərtlərin qəbul edilməsi; ümumi xarici tariflərin qəbulu; iştirakçı-ölkələrin qarşılıqlı ticarətində kəmiyyət məhdudiyyətlərinin və analoji tədbirlərin ləğv edilməsi [1, 334-343].

Aİ çərçivəsində gömrük münasibətlərinin tənzimlənməsindən danışarkən, 1992-ci ilin oktyabr ayının 12-də qəbul olunan və 1 yanvar 1994-cü ildə qüvvəyə minən İttifaqın Gömrük Məcəlləsini də xüsusilə qeyd etmək lazımdır. Gömrük Məcəlllləsinin yaradılması məqsədinə uyğun olaraq, o, İttifaqla üçüncü dövlətlər arasında ticarət münasibətlərinə şamil olunur. Struktur baxımından 257 maddəni özündə birləşdirən 9 hissədən ibarət olan Məcəllənin qəbul olunma məqsədləri aşağıdakılar hesab edilir: gömrük tənzimlənməsi sahəsində

Birliyin orqanlarının qəbul etdiyi çoxsaylı aktlara dəyişiklik edən vahid hüquqi sənədin yaradılması; məzmunun bütövlüyü, aydınlığı və müəyyənliyinə nail olunması; qanunvericiliyin möhkəmləndirilməsi.

Məcəllənin tətbiqi sferasına gəldikdə isə onu göstərmək lazımdır ki, mövcud akt Birlik səviyyəsində olduğu kimi, milli səviyyədə də İttifaqın gömrük qaydalarını müəyyən edir. Onlar isə Aİ-nin gömrük ərazisinə, Birlik və üçüncü dövlətlər arasında ticarətə, Avropa İqtisadi Birliyi haqqında Müqavilə, Avropa Kömür və Polad Birliyi haqqında Müqavilə, Avroatom haqqında Müqavilənin tənzim etdiyi əmtəələrə münasibətdə tətbiq edilir [1, 343-346].

Aİ-nin xarici sərhədləri vasitəsilə əmtəələrin yerdəyişməsi zamanı əmtəələr aşağıdakı gömrük rtejimlərindən birində ehtiva edilir: sərbəst dövriyyə üçün malların buraxılışı; gömrük tranziti; gömrük anbarı; gömrük ərazisində emal; gömrük ərazisindən kənar təkrar emal; gömrük nəzarəti altında emal; müvəqqəti istifadə (müvəqqəti idxal); ixrac [4, 366].

Bundan əlavə, Məcəllədə sərbəst zona və sərbəst anbara malların buraxılışı, İttifaqın gömrük ərazisindən malların təkrar ixracı, malların məhv edilməsi, maldan imtina kimi gömrük rtejimləri də təsbit edilmişdir [1, 365-377].

İttifaq çərçivəsində gömrük münasibətlərinin nizama salınmasında əsas yerlərdən biri də tarif tənzimlənməsidir. Belə ki, gömrük-tarif siyasətinin normativ əsasını «Avropa İttifaqının Gömrük Məcəlləsi haqqında» 12 oktyabr 1992-ci il tarixli Reqlament, 1987-ci ilin iyul ayının 23-də qəbul olunmuş «Avropa İttifaqının vahid gömrük tarifi, tarif və statistik nomenklaturası haqqında» Reqlament, bu sahədə qüvvədə olan onlarla sənəd təşkil edir. Bundan əlavə, müvafiq beynəlxalq qurumun preferensial rtejimlərin verilməsinin altı sxemi mövcuddur. Onlardan ən çox geniş yayılanı inkişaf etməkdə olan ölkələrə verilən Ümumi Preferensiya Sistemidir (ÜPS). ÜPS-nin rüsumlarının dərəcələri birləşdirilmiş tariflər sütununa uyğun müəyyən edilir.

Onu da qeyd etmək lazımdır ki, Aİ-nin ÜPS-i çərçivəsində inkişaf etməkdə olan ölkələrdən (İEOÖ) idxal olunan kənd təsərrüfatı və ərzaq məhsullarına qoyulan rüsumlar 20%-dən 60%-ə qədər endirilmişdir. Həmin endirim 700 tarif mövqeləri baxımından həyata keçirilmişdir. İEÖ-dən idxal edilən kənd təsərrüfatı məhsullarına isə ümumiyyətlə rüsum qoyulması tətbiq edilmir. Ümumiyyətlə, ÜSP sxemləri bütün İEOÖ-lərə tətbiq edilir. Lakin onlardan bəziləri müəyyən əlavə üstünlüklərdən istifadə edirlər. Həmin güzəştlər kateqoriyasına aşağıdakılar aid edilir:

- Lome Konvensiyası çərçivəsində Afrika qitəsi, Karib hövzəsi və Sakit okeana aid olan 69 ölkənin istifadə etdiyi güzəştlər. Adıçəkilən dövlətlərdən bir sıra mineral və aqrar məhsullar istisna edilməklə, istənilən əmtəə idxal edilir. Mövcud güzəşt əsas etibarilə, rom (tünd içki növü sayılır), şəkər və banana münasibətdə xüsusi rtejimlə tətbiq olunur.
- Şimali Afrika və Yaxın Şərq ölkələrinə (Əlcəzair, Mərakeş, Tunis, Misir, İordaniya, Livan, Suriya) verilən güzəştlər. Həmin dövlətlərdən Aİ-yə sənaye malları, 1995-ci ildən ənənəvi kənd təsərrüfatı məhsullarının gətirilməsi təmin edilir.
- Avropa Azad Ticarət Assosiasiyası haqqında Saziş çərçivəsində mövcud olan güzəştlər. Onlar əsas etibarilə, İsveçrə, Norveç və İslandiiyaya münasibətdə həyata keçirilir. Göstərilən dövlətlərdən istənilən sənaye və yarımfabrikat məhsulları rüsumsuz olaraq maneəsiz şəkildə

idxal olunur. Preferensial rtejim, həmçinin, kənd təsərrüfatı və ərzaq məhsullarının bir sıra növlərinə şamil edilir.

- Türkiyə, Malta, Kipr, Polşa, Çexiya, Slovakiya, Macarıstan, Bolqarıstan, Rumıniya, Latviya, Litva, Estoniya ilə assosiasiya haqqında sazişlər çərçivəsində ifadə olunan güzəştlər.
- İsraillə sənaye məhsullarının azad ticarəti haqqında Saziş çərçivəsində ehtiva edilən güzəştlər [6, 49-52].

Ümumiyyətlə, Aİ-də gömrük qanunvericiliyinin mənbələri özü-özlüyündə iki qrupa – «ilkin» və «ikincili» hüquqa bölünür. Həmin bölgüdən, demək olar ki, bütün ədəbiyyatlarda istifadə olunmaqla, onun subordinasiyasının müəyyənləşdirilməsi üçün əsas hesab olunur. Avropa qanunvericiliyinin mənbələri sistemində ilkin hüquq törəmə hüququn normaları ilə müqayisədə ali hüquqi qüvvəyə malikdir. Aİ-nin aktlarının analoji iyerarxiyası Birliyin Məhkəməsinin praktikası tərəfindən təsdiq olunmuş və öz əksini Avropa İttifaqı haqqında 1992-ci il Maastrix Müqaviləsinin müddəalarında tapmışdır. Belə ki, Müqavilənin 5-ci bölməsinə əsasən öz səlahiyyətlərini həyata keçirən Aİ-nin institutları (Avropa Parlamenti, Şura, Komissiya və Məhkəmə) təsis sənədlərinin müddəalarını və Maastrixt Müqaviləsinin normalarını əldə rəhbər tuturlar. Onu da qeyd etmək lazımdır ki, «ilkin hüquq» termini aşağıdakıları əhatə edir: Aİ-nin yaradılmasını rəsmiləşdirən beynəlxalq aktlar – Avropa Kömür və Polad Birliyi haqqında 1951-ci il Paris Müqaviləsi, 1957-ci il tarixli Avropa İqtisadi Birliyi haqqında Roma Müqaviləsi, eyni ildə qəbul olunmuş Atom enercisi üzrə Avropa Birliyi haqqında Roma Müqaviləsi; Məzmun etibariə təsis sənədlərinin mətnlərinə bir sıra düzəlişlər, o cümlədən gömrük vergi qoyulması ilə bağlı dəyişikliklər edən Aİ-ə yeni üzvlərin qoşulması barədə müqavilələr; Vahid Avropa Aktı; Maastrixt Müqaviləsi.

Göründüyü kimi adıçəkilən mənbələr ümumi xarakterli normaları özündə ehtiva etməklə, Aİ-nin əsas prisniplərini müəyyən edir. İlkin hüquq Aİ-nin üzv-dövlətlərinin təsiri üsullarından asılı olaraq, birbaşa və ya dolayı təsirə malik ola bilər. O, bir tərəfdən Aİ üzv-dövlətləri və xüsusi şəxslər arasında münasibətləri tənzim edən dəqiq qaydaları müəyyən edirsə, digər tərəfdən Qərbi Avropa inteqrasiyasının ümumi məqsəd və prinsiplərini üzə çıxarır.

İnkişaf etmiş Avropa dövlətlərinin gömrük işlərinin hüquqi tənzimlənməsi praktikasında isə gömrük tariflərinin aşağıdakı strukturları mövcuddur: gömrük rüsumlarının avtonom dərəcələri; daha əlverişli rtejimin gömrük rüsumlarının dərəcələri; Ümumi Preferensiya Sisteminə müvafiq olaraq, inkişaf etməkdə olan ölkələrin əmtəələrinə, Birliyin Ümumi Tarifinə uyğun olaraq, Avropa dövlətləri çərçivəsində mövcud olan mallara münasibətdə tətbiq edilən gömrük rüsumlarının preferensial dərəcəsi.

Aİ-də idxal olunan əmtəələrin qiymətləri üzərində nəzarətə gəldikdə isə, onun milli istehsalçıların müdafiəsi məqsədi güddüyü qənaətinə gələ bilərik. Buraya, əsasən, aşağıdakılar aid edilir: antidempinq tədbirləri; ixrac mallarının qiymətlərinin aşağı salınması ilə mübarizəyə yönəlmiş tədbirlər; ixrac subsidiyalarına qarşı istiqamətlənmiş kompensasiya tədbirləri.

Aİ çərçivəsində imzalanmış müəyyən müqavilələrdə isə bir sıra dövlətlərə münasibətdə müvafiq məhdudiyyətlərin tətbiq edilməsi nəzərdə tutulmuşdur. Məsələn, Toxuculuq üzrə Çoxtərəfli Sazişin

müddəalarına əsasən Təşkilat Argentina, Braziliya, Çin, Çexiya, Slovakiya, Hindistan, Macarıstan, Koreya Respublikası, Makao, Malayziya, Pakistan, Peru, Filippin, Polşa, Rumınya, Şri-Lanka, Sinqapur və Tailandla ticarətdə ixrac məhdudiyyətləri rtejimini dəstəkləyir.

Gömrük işi ilə bağlı münasibətlərin ayrı-ayrı aspektlərinin müəyyənləşdirilməsində digər regionların da iştirakı mühüm əhəmiyyətə malikdir. Belə ki, Afrika çərçivəsində gömrük münasibətləri ilə bağlı məsələlər fərqli qaydada mövcud olmaqla yanaşı, onların həlli yolları da müxtəlif variantlar əsasında yerinə yetirilir. Onu da qeyd etmək lazımdır ki, qitə dövlətlərində gömrük rüsumları iki əsas funksiyanı – fiskal və proteksionist istiqamətləri özündə ehtiva edir. Afrika dövlətlərinin əksəriyyəti üçün gömrük ödəmələri dövlət büdcəsinin gəlir hissəsini doldurur. Şübhəsiz ki, ayrı-ayrı ölkələrin həmin məsələyə münasibəti də eynilik təşkil etmir. Məsələn, Uqandada dövlət gəlirlərinin 50-60%-ni qəhvə ticarətindən əldə edilən ixrac rüsumları tutur. Bundan əlavə, Afrikanın bir sıra dövlətlərində isə (məsələn, Zimbabve) gömrük rüsumlarının fiskal funksiyası heç də mühüm əhəmiyyət kəsb etmir.

Bəzi Afrika dövlətlərində gömrük vergilərinin ayrıca növü olan fiskal rüsum da özünəməxsus rola malikdir. Niger, Mavritaniya kimi ölkələrdə isə gömrük ödəmələri arasında əsas yerlərdən birini fiskal rüsumlar tutur. Onlar malın mənşəyindən asılı olmayaraq, bütün əmtəələrdən toplanır. Lakin bir sıra dövlətlərdə, məsələn Mərakeşdə, bu, xüsusi idxal yığımı adlanır. Onu da qeyd etmək lazımdır ki, ixrac rüsumlarının ixrac olunan mallara tətbiq olunması fikri ilə tam şəkildə razılaşmaq olmaz. İxrac rüsumları fiskal funksiyanı yerinə yetirməklə bərabər, milli təbii resursların saxlanılması istiqamətində mühüm təbii xüsusiyyətlərə malikdirlər. Lakin bütün bunlara baxmayaraq, MƏR, Mərakeş kimi bir sıra Afrika dövlətləri dünya bazarında öz məhsullarına olan rəqabət qabiliyyətinin yüksəldilməsi üçün ixrac rüsumlarının tətbiq olunmasından imtinaya üstünlük verirlər. Tranzit rüsumları isə ölkənin gömrük ərazisi vasitəsilə xarici malların daşınmasına görə toplanmaqla, çox az dövlətlərdə (Burkino-Faso və s.) tətbiq edilir. Onu da qeyd etmək lazımdır ki, mövcud rüsumlar təkcə fiskal deyil, həm də siyasi məqsədlər üçün istifadə olunur. Belə ki, o, qonşu dövlətlərə təzyiq sayılmaqla, iqtisadi baxımdan səmərəsiz hesab edilir.

Ümumiyyətlə, Afrika dövlətlərində gömrük münasibətləri, tətbiq edilən rüsum sistemləri, ödəmələrin tamamilə fərqli qaydada mövcudluğu müəyyən nəticələrə gəlməyə imkan verir. Hal-hazırda Afrika dövlətləri əmtəələrin gömrük təsnifatının iki əsas növündən istifadə edilir. Onlardan biri 21 bölmə, 99 qrup və 1011 mal yarımqrupunu özündə birləşdirən Brüssel Gömrük Nomenklaturası hesab olunur. Lakin gömrük tariflərinə münasibətdə Afrika dövlətlərinin istinad etdiyi Əmtəələrin təsvirinin və kodlaşdırılmasının harmonizasiya edilmiş Sistemləri isə ikinci növü təşkil edir [3, 20-25].

MDB çərçivəsində imzalanmış müqavilələr də gömrük münasibətlərinin əlaqələndirilməsində mühüm rol oynayırlar və bununla əlaqədar dissertasiya işinin üçüncü fəslinin üçüncü paraqrafında ətraflı təhlillər aparılmışdır.

Bütövlükdə, regional beynəlxalq aktlar hər bir regionun əsas xüsusiyyətləri nəzərə alınmaqla, universal sənədlərə istinad edərək müvafiq münasibətlərin tənzimlənməsində əsas qismində iştirak etməklə, beynəlxalq gömrük münasibətlərinin realizəsində mühüm əhəmiyyət kəsb

edirlər.

### ƏDƏBİYYAT


1. Европейское право. Учебник для вузов / Под общ. ред. Л.М. Энтина. М.: НОРМА (Изд. группа НОРМА – ИНФРА·М.), 2000, 720 с.
2. Козырин А.Н. Государственно-правовой механизм таможенной политики зарубежных стран. М.: МГИМО, 1994, 145 с.
3. Таможенное законодательство стран Африки / Отв.ред. А.Н.Козырин. М.: Институт Африки РАН, 1996, 151 с.
4. Таможенное право. Курс лекций. В 2-х томах. Том 1. Общая часть. / Под. ред. В.Г.Драганова, науч. рук. М.М.Рассолов. М.: Экономика. 1999, 408 с.; Том 2. Особенная часть. Под. ред. В.Г.Драганова. Науч. рук. М.М.Рассолов. М.: Экономика. 1999, 656 с.
5. Право Европейского Союза: Учебник для вузов / Под ред. С.Ю. Кашкина. М.: Юристь, 2003, 925 с.
6. Шишаев А.И. Регулирование международной торговли товарами. М.: Центр экономики и маркетинга, 1998, 174 с.
7. Moussis N. Access to European Union: law, economics, policies. Genval, 1995.


## МЕЖДУНАРОДНЫЕ РЕГИОНАЛЬНЫЕ ДОГОВОРА В ТАМОЖЕННОЙ СФЕРЕ


**А.М.МАГЕРРАМОВ**


### РЕЗЮМЕ


Статья посвящена одной актуальной проблеме – региональным и международным договорам в таможенной сфере. В статье рассмотрены основные принципы и основные факторы, обеспечивающие деятельность региональных и международных договоров в таможенной сфере, в том числе и принципы, обеспечивающие генезис международных договоров. Помимо того, в статье подвергнуты анализу правовые механизмы, выступающие в данной сфере в качестве юридической базы, а также формирование и функционирование этих механизмов.


## THE INTERNATIONAL REGIONAL CONTRACTS IN CUSTOMS SPHERE


**A.M.MAGERRAMOV**


### SUMMARY


The article is devoted to one of the most actual subjects - regional and international contracts in customs sphere. In article investigates the main principles and major factors providing activity of regional and international contracts in customs sphere, including those principles providing genesis of the international contracts. Besides, it analyses law mechanisms as the law base of this sphere on the international scale, its formation and functioning.